**Xəlilov, Zabit**. Ölməzlik dastanı / Z. Xəlilov // Respublika. - 2022. - 26 yanvar. - **№ 17**. - S. 8.

**Azərbaycanda şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına diqqət və qayğı bütövlükdə sosial siyasətin prioritet istiqamətlərindən biridir. Dövlət bu kateqoriyadan olan insanlar üçün əlindən gələni edir. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin əsas istiqamətlərini müharibə veteranlarının, əlillərin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə olunması daimi hörmət və ehtiram göstərilməsi təşkil edir.**

Göygöldə də bu məsələ daimi diqqət mərkəzindədir. Göygöl Vətən müharibəsi şəhidi Cəbrayılov Elnur Tofiq oğlunun ildönümü mərasimi keçirilib. Göygöl Rayon İcra Hakimiyyətinin başçısının səlahiyyətlərinin müvəqqəti icraçısı, başçının birinci müavini Turani Əliyev, rayonun digər rəhbər şəxsləri, ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər və şəhər 1 nömrəli tam orta məktəbin şagirdləri Göygöl şəhər Şəhidlər xiyabanında Vətən müharibəsi şəhidi Cəbrayılov Elnur Tofiq oğlunun ildönümü ilə bağlı məzarını ziyarət ediblər. Məzarı önünə tər qərənfillər düzülüb, ruhuna dualar oxunub, əziz xatirəsi böyük ehtiramla anılıb. Şəhidin şərəfli döyüş yolundan, xoş xatirələrindən söhbət açılıb.

Sonda, Göygöl şəhər 1 nömrəli tam orta məktəbin şagirdləri şəhidlərə həsr olunmuş şeirlər söyləyiblər. Mərasimdə şəhidin ailə üzvləri ölkəmizdə şəhid ailələrinə göstərilən diqqət və qayğıdan razı qaldıqlarını bildirərək, ölkə Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını bildirmişlər.